

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

21 NOYABR 2024-cü il CÜMƏ AXŞAMI № 256 (8014) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

*Yeni Azərbaycan Partiyasının çox parlaq gələcəyi var. Yeni Azərbaycan Partiyası daim yaşayacaqdır. Mən əminəm ki, Yeni Azərbaycan Partiyasına yeni-yeni gənc üzvlər gələcəklər, bu partiyanın prinsiplərini günü-gündən yüksəklərə qaldıracaqlar və Yeni Azərbaycan Partiyası Azərbaycanın gələcəyinə xidmət edəcəkdir.*

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**



# YAP: Dünənin, bu günün, gələcəyin avanqard siyasi qüvvəsi

**21 noyabr 1992-ci ildə Naxçıvanda xalqımızın böyük oğlu Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası (YAP) yaradıldı. Yeni Azərbaycan Partiyası zamanın tələbindən, xalqın istək və arzularından doğulmuşdu. Eyni zamanda xalqın öz müdrik oğluna - Heydər Əliyevə olan ehtiyacından yaranmışdı. Əsası Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası 32 ildir Azərbaycanın siyasi səhnəsindədir və ölkənin hərtərəfli inkişafı üçün üzərinə götürdüyü bütün missiyaları mükəmməl şəkildə yerinə yetirir.**

Bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, cəmiyyətin avanqard qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının təşəkkülü elə bir vaxtda baş verdi ki, həmin zaman Azərbaycan olduqca mürəkkəb situasiyalardan, çətin imtahanlardan keçirdi. Azərbaycan dövlət müstəqilliyini qazanmışdı, lakin bu müstəqilliyə təhlükə və təhdid artırdı. Ciddi səhvlər ucbatından ölkədə vəziyyət kəskinləşmiş, torpaqlarımız erməni işğalına məruz qalmış, böyük sayda qaçqın ordusu meydana çıxmış, daxildə siyasi gərginlik güclənmiş, faktiki ölkə parçalanmaq, vətəndaş qarşıdurması, müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşmişdi. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Düşünmək olardı ki, xalqın bütün potensialını müstəqil dövlətçiliyin əsaslarının yaradılmasına, erməni təcavüzünə məruz qalmış torpaqlarımızın müdafiəsinə səfərbər etmək üçün nadir şans verilib. Təəssüf ki, bu şansdan vaxtında və lazımınca istifadə edilmədi. O dövrün hakimiyyətinin yarıtmaz fəaliyyəti nəticəsində artıq cəbhədə strateji üstünlük əldən verilmiş, Şuşa, Laçın rayonları itirilmişdi. Bir tərəfdən Azərbaycanın torpaqları dalbadal işğal olunur, o biri tərəfdən isə daxili hərc-mərclik getdikcə güclənirdi.

Ölkənin taleyi ilə bağlı ictimai narahatlığın gündən-günə artması, böhranlı vəziyyətdən çıxış yollarını axtarıb tapmağa qadir olan yeni qüvvənin, partiyanın ölkənin siyasi səhnəsinə çıxmasını obyektiv tarixi zərurətə çevirmişdi. İctimai düşüncədə artıq qərarlaşmış qənaətə görə, bu, elə bir təşkilat olmalı idi ki, bütün xalqı öz ətrafında birləşdirərək milli birliyi və vətəndaş həmrəyliyini təmin edə bilsin, xalq ona inansın, etimad göstərsin və hərtərəfli dəstək versin. Yeni elə bir partiya yaradılmalı idi ki, özündə dövlətçilik təcrübəsini, siyasi iradəni, qətiyyəti, müdrikliyi, kamilliyi üzvi surətdə birləşdirmiş olsun. O zaman müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşən Azərbaycanın ümidi müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasi xadim Heydər Əliyevə idi.

Böyük şəxsiyyət Heydər Əliyev fenomeninin bütün gücünə və qüdrətinə bələd olan Azərbaycan xalqı dərk edirdi ki, onun siyasi iradəsindən kənarda ölkənin problemləri özünün müsbət həllini tapmaq imkanından məhrumdur.

**(davamı 2-ci səhifədə)**

*Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

# YAP: Dünənin, bu günün, gələcəyin avanqard siyasi qüvvəsi



(əvvəli 1-ci səhifədə)

Azərbaycanın taleyini düşünən bir qrup ziyalı bu həqiqəti və inamı ifadə edərək, 1992-ci il oktyabrın 16-da Yeni Azərbaycan Partiyasını yaratmaq və ona rəhbərliyi öz üzərinə götürmək xahişi ilə Heydər Əliyevə müraciət etdi. Müraciətdə deyilirdi: *"Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübəsinə əsaslanaraq, Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz... Biz həm öz adımızdan, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".*

Azərbaycanın ən yeni tarixinə "91-lərin müraciəti" kimi daxil olmuş həmin məktub əslində bütün xalqın arzu və istəklərini ifadə edirdi. Heydər Əliyev oktyabrın 24-də ziyalılara göndərdiyi cavabında yeni yaradılacaq partiyaya rəhbərlik etmək barədə müraciəti qəbul etdiyini bildirdi. Ümummilli lider Heydər Əliyev ziyalıların müraciətinə "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabında *"Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər"* söyləməklə partiyanın bu gününə və gələcəyinə inamını ifadə etmişdir.

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda ulu öndər Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının respublikanın ayrı-ayrı bölgələrindən 550 nümayəndənin iştirakı etdiyi təsis konfransının keçirilməsi yeni müstəqil Azərbaycanın tarixində parlaq gələcəyin əsasını qoydu. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Nizamnaməsini və Proqramını qəbul etdi. Konfransda ulu öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri, həmçinin partiyanın Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri seçildi. Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük missiya götürən Yeni Azərbaycan Partiyası yarandı. Partiya 1992-ci il dekabrın 18-də Ədliyyə Nazirliyində qeydiyyata alınıb və qısa müddətdə bütün rayonlarda təşkilatları və özəkləri yaradılıb. YAP-ın təsis konfransında qəbul edilən Proqram və Nizamnamə partiyanın 1999-cu il dekabrında keçirilən I Qurultayında geniş şəkildə müzakirə edilərək təsdiq olunub. Yeni Azərbaycan Partiyası yarandığı gündən etibarən iqtisadi və sosial cəhətdən güclü Azərbaycan uğrunda mübarizə aparır, vətənə, millətə, müstəqil ölkəyə xidmət edir. Ulu öndər partiyanın yaranma səbəblərini və tarixi missiyasını təhlil edərək demişdir: *"Yeni Azərbaycan Partiyası ovaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq yaranmış bir partiyadır".*

Xalq yanılmamışdı, çünki Heydər Əliyev dünya miqyasında tanınan şəxsiyyət idi. O, idarəetmənin ustadı və siyasətin kamil bilicisi, analitik düşüncəsi iti, siyasi təfəkkürü dərin, yeniliklərə açıq, möhkəm iradə sahibi idi. Çətin situasiyalarda düzgün addımlar atmağı, rasional qərarlar verməyi bacaran, güclü xarizmaya malik fenomen bir şəxsiyyət idi. Vaxtilə rəhbərlik etdiyi Azərbaycanı çox gözəl tanıyır, xalqının potensialına, Vətən sevgisinə, milli ruhuna da yaxşı bələd idi. Ölkəni, milləti üzləşdiyi fəlakətdən yalnız Heydər Əliyev kimi qüdrətli şəxsiyyət, dünya görmüş siyasətçi xilas edə bilərdi. Belə də oldu. Yarandığı vaxtdan heç bir il keçməmiş iqtidar partiyasına çevrilən YAP ümummilli liderin rəhbərliyi ilə vətənin xilası naminə gərgin fəaliyyətə başladı. Təkcə partiya sədri kimi yox, həm də xalqın bilavasitə etimadı sayəsində Prezident seçilərək ölkəyə rəhbərlik edən Heydər Əliyev Azərbaycanı çox böyük təhlükələrdən, çətinliklərdən xilas etdi.

Dahi şəxsiyyət Yeni Azərbaycan Partiyasını dünənin, bu günün və gələcəyin partiyası kimi görmək istəyini də açıqladı və bu tezis partiyanın fəaliyyətinin bələdçisinə çevrildi. YAP dünya təcrübəsində analoqu olmayan bu mühüm uğura da imza atdı. Xalqın sevimli partiyasına çevrilən Yeni Azərbaycan Partiyası sıralarının gündən-günə artmasının isə tək bir səbəbi var idi - xalqın partiyanın sədrinə olan sonsuz sevgisi və inamı. Çünki zaman göstərdi ki, xalq Heydər Əliyevə arxalanmaqla, onun ətrafında sıx birləşməklə öz gələcəyini təmin etdi.

Ümummilli lider Azərbaycanın müstəqil və suveren dövlət kimi fəaliyyətini təmin edən kursu hazırladı və onu həyata keçirməyin yollarını layiqli davamçısı, oğlu İlham Əliyevə miras kimi qoydu. Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycan bu gün regionun ən qüdrətli dövlətidir, dünyada böyük nüfuza malikdir. Regionda Azərbaycanın razılığı olmadan heç bir layihə icra oluna bilməz. Ölkə daxilində sabitlik, firavanlıq hökm sürür, insanların rifah halı gündən-günə yaxşılaşır. Elə bir sahə yoxdur ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın.

Ümummilli lider 2003-cü ildə xalqa tarixi müraciətində cənab İlham Əliyevə və Yeni Azərbaycan Partiyasına böyük inamını ifadə edərək axıra çatdıra bilmədiyi işləri xalqın dəstəyi ilə Prezident İlham Əliyevin axıra çatdıra biləcəyini bildirdi. Son 20 ilin uğurları bu inamın təsdiqidir. Ümumilikdə ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra başlanan inkişaf yolu bu gün dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirir. Partiyanın 32 illik tarixi bu yolun uğurlarının təqdimatıdır. Yeni Azərbaycan Partiyası ötən müddət ərzində Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçib, çox mühüm, tarixi əhəmiyyətə malik nailiyyətlər qazanıb. Ən əsası, Yeni Azərbaycan Partiyası müasir, müstəqil Azərbaycanın siyasi sistemini formalaşdırıb, siyasi mədəniyyətin təşəkkülünü təmin edib. Bu gün Yeni Azərbaycan Partiyası siyasi sistemin monolit gücü və avanqard siyasi institutudur. Başqa sözlə, YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki yerinə görə nəinki Azərbaycanın siyasi palitrasının, eyni zamanda regionun ən böyük və güclü partiyasıdır.

Partiya üzvləri 32 illik tarixi qələbələr və uğurlarla zənginləşdirərək bu gün dünyaya səs salan tarixi Zəfərimizdə töhfələrinin olmasından qürur hissi keçirirlər. Hər zaman qarşıdakı dövr üçün hədəflərini açıqlayarkən Yeni Azərbaycan Partiyası bu mühüm vəzifəni qarşıya qoydu ki, Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin təbliğinə, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin və söz sahibliyinin möhkəmləndirilməsinə töhfələr versin. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, soydaşlarımızın torpaq həsrətinə son qoyulması əsas hədəflərdən biri idi.

Bu gün Yeni Azərbaycan Partiyası yaradılmasının 32 illiyini Zəfər ruhunda, işğaldan azad edilmiş ərazilərimizdə qalibiyyətimizin rəmzi olan üçrəngli bayrağımızın dalğalandığı, genişmiqyaslı bərpa-quruculuğun vüsət aldığı, Qarabağın və Şərqi Zəngəzurun cənnətməkana çevrildiyi bir zamanda qeyd edir. Bu gün Azərbaycan Bayrağı Xankəndidə, Xocalıda, Ağdərədə və Xocavənddə dalğalanır. Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi ulu öndər Heydər Əliyevin əsas amalı idi. Hazırda ümummilli liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP böyük gücə çevrilib, onun 700 mindən çox yaxın fəal üzvü var. Bu üzvlərin böyük hissəsi gənclərdir ki, onlar da Azərbaycanın tarixi Zəfərinin qazanılmasında müstəsna rol oynadılar.

**Mustafa KAMAL,**
**"Respublika".**